TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASI

11-Cİ İCLAS

Bişkek, 19 aprel 2024-cü il

TÖVSİYƏ QƏRARI

TÜRKPA ÜZV DÖVLƏTLƏRİNİN TİCARƏT NÜMAYƏNDƏLİKLƏRİ: MİLLİ İQTİSADİYYATIN GÜCLƏNDİRİLMƏSİ VƏ BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIĞA TÖHFƏ

Parlament Assambleyası:

*TÜRKPA üzv dövlətlərinin ticari-iqtisadi potensialının reallaşdırılması üçün mövcud imkanlardan istifadənin zəruriliyini **dərk edərək**;*

*TÜRKPA regionunda beynəlxalq ticarətin inkişafı üçün şəraitin yaradılmasının **vacibliyini vurğulayaraq**;*

*TÜRKPA üzv dövlətləri arasında ticarətin asanlaşdırılması və sürətləndirilməsində ticarət missiyalarının müstəsna rolunu **təsdiq edərək**;*

*TÜRKPA üzv dövlətlərinin milli iqtisadiyyatlarının gücləndirilməsinə yönəlmiş bütün qarşılıqlı əməkdaşlıq fəaliyyətini **alqışlayaraq**;*

*TÜRKPA regionunda birgə iqtisadi əməkdaşlığa töhfə vermək məqsədilə hər hansı bir tərəfin təşəbbüsünə dəstəyin verilməsinin vacibliyini **dərk edərək**;*

*Ticari-iqtisadi inkişafı stimullaşdırmaq məqsədilə TÜRKPA üzv dövlətləri tərəfindən təsdiq edilmiş beynəlxalq müqavilələrdə müəyyən edilmiş TÜRKPA ərazisindən keçən tranzit marşrutları üçün əlverişli şəraitin yaradılmasının zəruriliyini **qəbul edərək;***

*Getdikcə mürəkkəbləşən geosiyasi və beynəlxalq sosial-iqtisadi vəziyyətdə TÜRKPA əməkdaşlığının qarşılıqlı faydalı ticarət mexanizmlərinin təkmilləşdirilməsinə yönəldilməli olduğunu **dərk edərək**;*

*TÜRKPA üzv dövlətlərində istehsal olunan mal və xidmətlərin qarşılıqlı istehlakının təşviqi məqsədilə mal və insanların daşınmasının asanlaşdırılması və sürətləndirilməsinə yönəlmiş bütün təşəbbüsləri həyata keçirmək niyyətini **ifadə edərək**;*

*Davamlı artım və iqtisadi inkişafın mühüm elementi kimi ticari-iqtisadi əməkdaşlığın stimullaşdırılması məqsədilə tranzit potensialının artırılmasının zəruriliyini **dərk edərək**;*

*Qanunvericilik aktlarının qəbul edilməsi, büdcələrin təsdiq edilməsi, resursların səfərbər edilməsi yolu ilə milli iqtisadiyyatın ticarət, sənaye, istehsal və nəqliyyat sektorlarında parlamentlər və parlamentarilərin xüsusi rolunu **nəzərə alaraq**;*

*Milli qanunvericiliyin tənzimlənməsi baxımından iqtisadi bazanın inkişafına institusional, infrastruktur və maliyyə dəstəyinin təmin edilməsində parlamentlərin əsas rolunu **nəzərə alaraq,***

TÜRKPA üzv dövlətlərinin parlamentlərinə tövsiyə edir:

a) *TÜRKPA üzv dövlətləri arasında qanunvericiliyin sonrakı uyğunlaşdırılması və yaxınlaşdırılması ilə ticarət missiyalarına dair hüquqi bazanı təkmilləşdirmək;*

b) *TÜRKPA regionunda dəniz və "quru" liman qovşaqlarının fəaliyyətinin qarşılıqlı sinxronlaşdırılmasına mane olan problemləri təhlil etmək və sistemləşdirmə üçün səlahiyyətli orqanlarla lazımi tədbirlər görmək;*

c) *TÜRKPA üzv dövlətləri arasında mal axınını artırmaq məqsədilə həmin dövlətlərin paytaxt və iri şəhərlərində ticarət evlərinin müntəzəm fəaliyyətinin dəstəklənməsi imkanlarını nəzərə almaq və həyata keçirmək*

d) *TÜRKPA üzv dövlətlərinin tranzit yüklərinin və qarşılıqlı istehlak mallarının daşınmasını təmin edən TÜRKPA üzv dövlətlərinin daşıyıcıları üçün əlverişli şərait yaratmaq;*

e) *TÜRKPA regionunda nəqliyyat və tranzit potensialından maksimum istifadə etmək məqsədilə TÜRKPA üzv dövlərində hərəkət heyəti və lokomotiv dartma parklarının, həmçinin dəniz bərələrinin çatışmazlığının aradan qaldırılması üzrə birgə tədbirlər həyata keçirmək;*

f) Xəzər dənizinin dibi ilə fiber-optik rabitə şəbəkəsinin qurulması ilə bağlı TÜRKPA regionunda rəqəmsal biznesin inkişafı üçün yüksək sürətli və təhlükəsiz məlumat ötürülməsi infrastrukturunu yaratmaq niyyətində olan iri beynəlxalq investorları cəlb etmək imkanlarını axtarmaq;

g) ümumi platformalar əsasında ən yaxşı nailiyyətləri bölüşmək məqsədilə ticarət, nəqliyyat, daşıma, istehsal, informasiya texnologiyaları və digər sahələrdə yüksək texnologiyaların tətbiqi məqsədilə TÜRKPA üzv dövlətlərində fəal biznes nümayəndələrindən ibarət assosiasiyalar yaratmaq;

h) ticari-iqtisadi siyasətin işlənib hazırlanmasında hərtərəfli və çevik yanaşmanın qəbul edilməsi və bu sahədə bürokratik maneələrin və ya icra zamanı səhvlərinin aradan qaldırılması üçün mütəxəssislər arasında müntəzəm olaraq məsləhətləşmələr aparmaq;

i) TÜRKPA üzv dövlətlərində müvafiq sahədə qanunvericiliyi yaxınlaşdırmaq məqsədilə maraqlı tərəflər üçün ticari-iqtisadi potensialın reallaşdırılmasına yönəlmiş investisiya proqramlarından səmərəli istifadə ilə bağlı milli və beynəlxalq qabaqcıl təcrübələri öyrənmək.